**Tarix və onun problemləri, № 1 2014**

**NƏRGİZ QULİYEVA**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun professoru, tar.e.d.***
**ELNUR HƏSƏNOV**
***AMEA Gəncə Bölməsinin doktorantı***
**E-mail: el-hasanov@mail.ru**

# XX ƏSRİN BİRİNCİ YARISINDA GƏNCƏ ŞƏHƏRİNDƏ DULUSÇULUĞUN İNKİŞAFI

*Açar sözlər:* tarixi-etnoqrafik tədqiqat, yeni və müasir dövr, Gəncə, dulusçuluq sənəti, Azərbaycan

*Ключевые слова*: историко-этнографическое исследование, новый и современный периоды, Гянджа, гончарное ремесло, Азербайджан

*Key words*: historic-ethnographical research, New and Modern periods, Ganja, ceramics trade, Azerbaijan

Dahi Şeyx Nizaminin yurdu Gəncə şəhəri tarixən mühüm elm və mədəniyyət mərkəzi kimi tanınmışdır. Azırbaycan tarixinin çox önəmli mərhələsi olaraq səciyyələndirilən XIX-XX əsrlər dövrü həm də sənətkarlığın ayrı-ayrı sahələrinin inkişafı ilə seçilmişdir. Bəhs edilən mərhələdə Gəncə şəhərində 20-dən artıq sənətkarlıq sahəsinin çoxəsrlik ənənələr əsasında inkişafını sübuta yetirən maddi dəlillər mövcuddur. Bu baxımdan XX əsrin birinci yarısında Gəncə şəhərində çox qədim inkişaf tarixinə malik olan ənənəvi dulusçuluq sənətinin mövcud vəziyyətinin tədqiqi məqsədilə bir sira mənbələrin araşdırılması vacibdir.

Əvvəla, qeyd edilməlidir ki, Gəncə ərazisindən və ətraf bölgələrdən ən qədim nümunələri eradan əvvəl VIII-VII minilliklərə (neolit mərhələsinə) aid olan dulusçuluq sənəti məmulatlarının aşkar olunması və fasiləsiz olaraq əsrlər ərzində bu sənətkarlıq sahəsinə aid ənənələrin davam etdirilməsi xalqımızın etnoqrafiya tarixinin tədqiqində qeyd olunan sənətkarlıq növünün dəyərini sübut edir. Bəhs edilən XIX-XX əsrlər dövründə də Gəncə şəhərində məhz yerli ənənələrə istinad edən, milli ornamentlərin əks etdirildiyi dekorativ-tətbiqi sənət elementlərinin ustalıqla tətbiq edildiyi dulusçuluq məmulatlarının istehsalı prosesi davam etmişdir. Bu nöqteyi-nəzərdən Gəncə şəhəri və bütövlükdə Gəncəbasar ərazisində əhali tərəfindən məişətdə, təsərrüfatda istifadə edilən keramika məmulatlarını şərti olaraq bir neçə mühüm növdə təsnif etmək mümkündür:

I. Su qabları.
II. Təsərrüfat küpləri.
III. Xörək qabları [1; 2].
IV. Qızdırıcı vasitələr.
V. Çıraqlar.
VI. Su təchizat vasitələri [3].

Qeyd etmək lazımdır ki, Gəncə dulusçuluq sənətinin XIX-XX əsrlərə aid şəhrəng, səhəng, kuzə, sürahi, dolça, fəşir, küvəc, qazan, dopu, həlimdan kimi məmulatları məhz yerli istehsal nümunələri hesab olunur. Bu isə, öz növbəsində qədim və orta əsrlər mərhələlərinə aid yerli ənənəvi dulusçuluq qablarının istehsalında istifadə edilən sənətkarlıq xüsusiyyətlərinin davam etdirildiyini, qeyd edilən cəhətləri sənətkar nəsillərinin irsən yaşatdığını və beləliklə, bu ənənələrin məhz əcdadlarımız tərəfindən təməlinin qoyulduğunu təsbit edir [4, s. 30].

**Tarix və onun problemləri, № 1 2014**

Bundan əlavə, bəhs edilən dövrə aid Gəncə dulusçuluğu məmulatlarının etnik mənsubiyyəti məsələsinin elmi cəhətdən tədqiqi bir daha azərbaycanşünaslığın öyrənilməsində yerli ənənəvi sənətkarlıq sahələrinin mənbəşünaslıq əhəmiyyətini təsbit edir. Bu baxımdan qeyd olunan gil qab nümunələrinin 2 qrup mühüm cəhətləri xüsusilə diqqətəlayiqdir:

Dekorativ-ornament (naxış) xüsusiyyətləri;

Konstruktiv-plastik forma elementləri.

Üzərində ayrı-ayrı həndəsi, nəbati (bitki təsvirləri) səciyyəli naxışlar, müxtəlif kalliqrafik yazı nümunələri həkk edilmiş və fərqli forma, ölçülərə malik olan ənənəvi Gəncə dulusçuluq sənəti məmulatlarının goduş, xeyrə, küp, ləh kimi növləri ilə yanaşı, məişətdə mühüm yer tutmuş kürələrin də istehsal edilməsi vacib tarixi-etnoqrafik mənbə qismində çıxış edir. Çünki xörək kürəsi, kürsü kürəsi, həmçinin təndir, sac, kiranə (kiyə) kimi gil məmulatlarının ayrı-ayrı sənətkarlıq xüsusiyyətləri onların etnik mənsubiyyəti probleminin elmi cəhətdən öyrənilməsində əhəmiyyətlidir [1-3;5]. Azərbaycanşünaslığın tədqiqində Gəncə dulusçuluq sənətinin bəhs olunan məmulatlarının ən mühüm mənbəşünaslıq cəhətləri sırasında Gəncə və Gəncəbasarla yanaşı, Qarabağ, Qərbi Azərbaycan, Naxçıvan kimi bölgələrdən aşkar olunmuş oxşar nümunələrlə qarşılıqlı müqayisə sayəsində bu ərazilərin məhz əcdadlarımız tərəfindən məskunlaşıldığının sübutu olmasını göstərmək mümkündür.

Bundan əlavə, tədqiq edilən mərhələdə Gəncədə dulusçuluğun inkişafının səciyyəvi xüsusiyyətlərinin üzə çıxarılması üçün bəhs olunan sahələrlə bağlı fəaliyyət göstərən sənətkar emalatxanalarının quruluşu və iş prinsiplərinin öyrənilməsi çox əhəmiyyətlidir. Nəzərə almaq lazımdır ki, bu cür tədqiqatlarda həm də digər ənənəvi sənət sahələri ilə bağlı kustar istehsal məkanlarının, emalatxanaların fəaliyyəti və quruluşu məsələlərinin də araşdırmalara cəlb edilməsi olduqca önəmlidir. Məhz bu baxımdan Gəncə şəhərində XIX əsrin sonu-XX əsrin əvvəllərində sənətkarlıq emalatxanalarının quruluşu və həmçinin fəaliyyətini aşağıdakı mühüm mənbələr əsasında tədqiq etmək məqsədəuyğundur:

1. Qeyd olunan tarixi mərhələdə Gəncə şəhərində müxtəlif sənətkarlıq sahələri üzrə ixtisaslaşmış emalatxanaların strukturu və fəaliyyətinin səciyyəvi xüsusiyyətlərinin arxiv materialları əsasında elmi tədqiqat obyekti kimi ətraflı surətdə öyrənilməsi.

Bu məqsədlə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Gəncə filialında qorunan bir sıra sənədlər tədqiq edilmişdir. Nəticə olaraq dulusçuluq, şərbaflıq, toxuculuq, əlalxüsus xalçaçılıq, metalişləmə (o cümlədən bədii metalişləmə), sərraclıq, bəzzazlıq kimi ayrı-ayrı sənət sahələri ilə məşğul olan sənətkarların emalatxanalarda istehsal prosesini təşkil etmələri, usta-şagird münasibətlərinin vəziyyəti, ümumiyyətlə kustar sənayenin inkişafının bir sıra səciyyəvi cəhətləri üzə çıxarılır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1888-ci ildə Gəncədə 66 dabbağ (gön-dəri istehsalı) emalatxanasının mövcud olması [1], XIX əsrin sonu-XX əsrin əvvəllərində 100-dən çox dulusçu sənətkarın fəaliyyət göstərməsi, 1849-cu ildə şəhərdə 75 nəfər çəkməçi sənətkarın rəsmən çalışması kimi məlumatlar qeyd olunan elmi metodun səmərəliliyini təsbit edir [2].

2. Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyinin qeyd olunan tarixi mərhələyə aid olan eksponatlarının geniş etnoqrafik tədqiqata cəlb edilməsi.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Gəncə şəhərində daşişləmə, ağacişləmə, şalbaflıq, papaqçılıq, keçəçilik, xalçaçılıq, zərgərlik, misgərlik, dəmirçilik kimi müxtəlif sənət sahələri üzrə ixtisaslaşmanın öyrənilməsində sənətkarlıq emalatxanalarında vaxtilə istehsal edilmiş və müasir dövrümüzdə muzey ekspozisiyalarında mühafizə olunan maddi nümunələrin mənbəşünaslıq dəyəri yüksəkdir. Bu nümunələrin təfsilatlı elmi tədqiqi nəticəsində məlum olur ki, qeyd edilən tarixi mərhələdə Gəncə şəhərində fəaliyyət göstərmiş emalatxanalarda texniki

təchizat kifayət qədər yüksək olmuşdur. Bundan əlavə, emalatxanalarda bir tərəfdə təyinata uyğun olaraq kürə, istehsal avadanlığı yerləşir, digər tərəfdə isə usta və kargərin tapşırıqlarını yerinə yetirən şagird istehsal prosesini izləyir və mənimsəyirdi [3].

Bu məqamda bir faktı xüsusi qeyd etmək lazımdır ki, qədim tarixə və nəsildən-nəslə ötürülən zəngin ənənələrə sahib olan xalçaçılıq, dulusçuluq, metalişləmə, daşişləmə, sikkə zərbi, həkkaklıq kimi sənətkarlıq sahələri Gəncə şəhərində bir çox özünəməxsus cəhətlər əxz etmişdir. Bu baxımdan XIX-XX əsr mərhələsi bu mühüm mədəniyyət mərkəzində ayrı-ayrı sənət sahələrinin, xüsusilə də dekorativ-tətbiqi sənət növlərinin inkişafında əhəmiyyətli tarixi dövr kimi səciyyələndirilməlidir. Azərbaycançılıq məfkurəsinin daim təbliğ və təşviq edildiyi Şeyx Nizami Gəncəvinin yurdunda bəhs olunan sənətkarlıq sahələrinin inkişaf xüsusiyyətlərinin elmi cəhətdən tədqiqinin əhəmiyyətini şərtləndirən bir sıra mühüm cəhəti mövcuddur.

Bəhs edilən mərhələdə Gəncədə dulusçuluqla yanaşı, metalişləmə sənəti özünün sürətli tərəqqisi, inkişafı ilə fərqlənmişdir. XIX-XX əsrlər dövründə şəhərdə metal məmulatlarının istehsalı və bu nümunələrin səthinin işlənilməsi, naxışlanması sahəsində ixtisaslaşma güclənmiş, peşəkar sənətkarların yerli ənənələrə istinad edərək hazırladıqları nümunələr nəfisliyi, keyfiyyətliliyi ilə diqqəti cəlb etmişdir. Azərbaycanın ənənəvi bədii sənətkarlıq, dekorativ-tətbiqi sənət xüsusiyyətlərinin ən mühüm cəhətlərini özündə ehtiva edən Gəncə metalişləmə məmulatları yuxarıda sadalanan sahələrlə yanaşı, bəhs edilən mərhələdə müstəqil sənət sahələri kimi mövcudluğunu qorumuş silahsazlıq, tökməçilik, bıçaqçılıq, çilingərliklə təmsil olunurdu. Yerli ənənəvi metalişləmə sənəti sahələrinin azərbaycanşünaslığın elmi cəhətdən tədqiqində malik olduğu ən vacib xüsusiyyətlərindən biri də şəhərsalma vahidlərinin məhz sənətkarlıq mərkəzi kimi formalaşmasına şərait yaratmasıdır [7; 8]. Qarasavad, basma, tökmə, qəlibkarlıq kimi texnoloji üsulların tətbiq edilməsi ilə hazırlanmış yerli dekorativ-tətbiqi metalişləmə məmulatları Gəncədə şəhər mədəniyyəti ünsürlərinin sürətli inkişafını, bu sənət sahəsində ixtisaslaşmanın gücləndiyini təsbit edir. Gəncənin XIX-XX əsr sənətkarlıq sahələri içərisində ənənəvi xalçaçılıq müstəsna dəyərə malikdir. Bir faktı qeyd etmək kifayətdir ki, xalça xalqımızın hər bir nümayəndəsinin həyatının istər ilk, istərsə də dünyadan köçdüyü son anlarında zəruri əşyası olmaq etibarilə zəngin maddi və mənəvi mədəniyyətinin ayrılmaz hissəsidir. Gəncə xalçaları (yaxud Gəncə-Qazax xalçaları) ənənəvi Azərbaycan xalçalarının səciyyəvi sənətkarlıq xüsusiyyətlərinə malik ayrıca bir növünü təşkil edir. Tədqiq olunan mərhələdə Gəncə xalçalarının kustar üsulla, yerli xalçaçı sənətkarlar tərəfindən hazırlanması ilə yanaşı, tədricən XX əsrin II yarısından etibarən Xalça-mahud kombinatında texniki vasitələrlə istehsalı sürətlənmişdir. Dəyərli sənətkarlıq-dekorativ ornament xüsusiyyətləri, xov quruluşu, hazırlanma texnika və texnologiyasının səciyyəviliyi ilə seçilən Gəncə xalçaları zəngin kompozisiya-təsvir elementlərinin mövcudluğu ilə diqqəti cəlb edir. 1850-1912 – ci illərdə müxtəlif çeşidli Gəncə xalçaları Paris, Turin, Tiflis, Nijni Novqorod kimi şəhərlərdə keçirilmiş beynəlxalq sərgilərdə nümayiş etdirilmiş və çox yüksək qiymətləndirilmişdir [4; 9-11].

3. Qədim şəhərsalma quruluşuna malik Gəncədə məhəllələrin sənətkarlıq təyinatının əsasında tədqiqat aparılması.

Bəhs edilən dövrdə Gəncə şəhərində "Dulusçular", "Dəmirçilər", "Papaqçılar", "Zərgərlər", "Misgərlər" kimi bir sıra qədim tarixə sahib sənətkar məhəllələri mövcud olmuşdur [4; 5]. Burada indiki Cavad xan, M.A.Abbaszadə küçələri, Heydər Əliyev, N.Nərimanov, Atatürk, Nizami prospektlərində yerləşmiş və ümumi sayı müvafiq olaraq 300-dən çox olan emalatxananın fəaliyyət göstərdiyi məlumdur. Bu sənətkar emalatxanalarında fərqli təyinatlı məmulatlar istehsal olunurdu:

1) Əhalinin məişətində istifadə olunan əşyaların istehsalı üzrə ixtisaslaşmış emalatxanalar.

2) Təsərrüfatda istifadə edilən əşyaların istehsalı ilə bağlı sənətkar emalatxanaları.

3) Geyimlə əlaqədar məmulat nümunələrinin istehsalı üzrə ixtisaslaşmış çoxsaylı sənətkarlıq emalatxanaları [1-3].

Beləliklə, ötən əsrin əvvəllərində qədim sənətkarlıq ənənələrinə malik Gəncə şəhərində bəzi digər bölgələrdən fərqli olaraq, dulusçuluq və başqa sənət sahələrində inkişaf davam etmiş və texniki tərəqqi ənənəvi xalq sənətini sıradan çıxarmamışdır.

## ƏDƏBİYYAT:

1. Quliyeva N.M. Gəncədə sənətkarlıq // Elm və həyat jurnalı, 2012, № 3, s.125-129
2. Guliyeva N.M., Hasanov E.L. About ethnographic-archaeological research of some handicraft branches of Ganja during XIX - XX centuries / Progressive scientific explorations - 2012: Proceedings of the 8th International scientific-practical conference. Prague: Publishing House - Education and Science s.r.o., Prague, (Czech Republic), 2012, p.73-75
3. Флоревский Н. Елизаветпольский округ // Обозрение Российских владений за Кавказом, часть II, Спб., 1836, с. 392-393
4. Häsänov E.L. Die Gändschänischen teppiche von XIX – XX Jahrhundert als geschichtliche - ethnographische quelle / European Science and Technology (Die Europäische Wissenschaft und die Technologien): 2$^{nd}$ International scientific conference. Bildungszentrum Rdk e. V. Wiesbaden, (Germany) 2012, p. 26
5. Həsənov E.L. Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi (tarixi-etnoqrafik tədqiqat). Bakı: Elm və təhsil, 2012, 268 s.
6. Azərbaycan incəsənəti. VIII cild, Bakı: Elm, 1959, 276 s.
7. Кулиева Н.М., Гасанов Э.Л. О развитии некоторых традиционных ремесленных отраслей Гянджи на рубеже XIX-XX веков / I Международная научно-практическая конференция: История и археология в современном мире. Москва: Спутник+ (Россия), 2012, с. 36
8. Mustafayev A. Azərbaycanda sənətkarlıq. Bakı: Altay, 2001, s. 199-200
9. Hasanov E.L. Innovative approach to teaching and research of some traditional craft branches of Ganja of the end of XIX century // International Journal of Experimental Education (Problems of international integration of national education standards: Proceedings of International scientific conference. – France, Paris), 2013, № 2, p. 81-83
10. Алиева А.С. Ворсовые ковры Азербайджана XIX - нач. XX веков. Баку: Элм, 1973, с. 21-25
11. Hüseynova S.B. Gəncə şəhəri haqqında bəzi etnoqrafik qeydlər (XX əsrin əvvəlləri) / Kirovabadın maddi, mədəni və ictimai həyatına həsr edilmiş II elmi konfransın materialları. Bakı: Elm, 1987, s. 38-39

**Tarix və onun problemləri, № 1 2014**

**НАРГИЗ КУЛИЕВА**
***д.и.н, профессор Института Археологии и Этнографии НАНА***
**ЭЛЬНУР ГАСАНОВ**
***докторант Гянджинского отделения НАНА***

## РАЗВИТИЕ ГОНЧАРНОГО РЕМЕСЛА В ПЕРВОЙ ПОЛОВИНЕ XX ВЕКА В ГОРОДЕ ГЯНДЖЕ

Впервые были подробно исследованы характерные особенности развития гончарного ремесла в городе Гяндже в конце XIX – начале XX веков с этнографической точки зрения. Также в научной статье были выявлены новые важные факты о данной ремесленной отрасли.

**NARGIZ GULIYEVA**
***d.h.s., professor of Institute of Archaeology and Ethnography of ANAS***
**ELNUR HASANOV**
***PhD post-gradute of Ganja Branch of ANAS***

## DEVELOPMENT OF CERAMICS TRADE AT THE BEGINNING OF THE XX CENTURY IN GANJA CITY

For the first time were widely investigated the typical features of development of pottery trade in Ganja city at the end of XIX - beginning of the XX centuries from the ethnographical point of view. Also in scientific article have been revealed new important facts about this handicraft branch.

***Rəyçi: prof. Ş.M.Məmmədov, t.e.d. Q.S.İsmayılov***
***Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının 25 iyun 2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №12).***